# Yeniləşən Azərbaycan təhsilinin yeni uğurları




**Dünyada çoxlu əlamətdar günlər, peşə bayramları qeyd olunur. Bunların arasında ən kütləvisi Beynəlxalq Müəllimlər Günüdür. Çünki elə bir yaşayış məntəqəsi, elə bir ev, ailə yoxdur ki, bilavasitə müəllim zəhmətindən bəhrələnməsin. Bu əlamətdar gün UNESCO-nun qərarı ilə 1966-cı ildən ümumbəşəri təqvimə düşüb.**

Ulu öndər Heydər Əliyevin sözləri ilə desək, məhz müəllim doğma yurdumuzu sevməyi, hamının rifahı naminə vicdanla işləməyi müdrikliklə və səbirlə bizə öyrətmiş və öyrədir. Hər birimizin öz müəllimi vardır və biz bütün ömrümüz boyu onun xatirəsini hörmətlə, minnətdarlıqla qəlbimizdə yaşadırıq. Müəllimləri cəmiyyətin memarları, insanlıq bağının bağbanı da adlandırmaq olar. Onlar sabahın təməlini qoyanlar, şagirdlərinə fəzilətli insan olmağı, insanlıq üçün faydalı işlər görməyi öyrədənlərdir. Buna görə də valideynlər rahatlıqla öz övladlarının təlim-tərbiyəsini müəllimlərə etibar edirlər.

**(ardı 9-cu səhifədə)**

5 Oktyabr Beynəlxalq Müəllimlər Günüdür

# Yeniləşən Azərbaycan təhsilinin yeni uğurları



(əvvəli 1-ci səhifədə)

Statistikaya görə, Azərbaycanda 300 mindən artıq təhsil işçisi var. Bunun dörddə-üçü ümumi təhsil müəssisələrində (orta məktəblər) çalışır. Ümumi sayda qadın müəllimlər yarıdan bir qədər çoxdur. Ölkəmizdə təhsil islahatları uğurla həyata keçirilir. Təhsil ocaqlarının maddi-texniki bazası durmadan genişlənir. Təhsildə keyfiyyət göstəricilərinin yüksəlməsində müəllimlərin sertifikatlaşdırma imtahanları mühüm rol oynayır.

Daim öz üzərində işləyən, peşə ustalığını artıran pedaqoqlarımızın stimullaşdırılması diqqət mərkəzindədir. Bir neçə ay əvvəl Elm və Təhsil naziri Emin Əmrullayev "Sertifikatlaşdırma: peşəkar müəllim-keyfiyyətli təhsil" adlı tədbirdə çıxışı zamanı deyib ki, Azərbaycanda hər 3 müəllimdən 1-i 2023–2024-cü tədris ilində 1000 manat və daha yuxarı əməkhaqqı alacaq. Hazırda müəllimlərin 22 faizi 500 manata qədər, 48 faizi 500–1000 manat, 26 faizi 1000–1500 manat, 5 faizi 1500–2000 manat, 0,4 faizi 2000 manat və daha artıq maaş alır. Həvəsləndirmə tədbirlərinin tətbiqi də davam edir və getdikcə maaşlar daha da artacaq.

Göründüyü kimi, Azərbaycan cəmiyyətində müəllimlik, şəxsiyyəti gözəl və təsirli ifadələrlə qiymətləndirilən hörmətli və perspektivli peşədir. Prezident İlham Əliyev pedaqoq əməyini yüksək qiymətləndirərək deyib: "Azərbaycanın əldə etdiyi bütün nailiyyətlərin əsasında məhz müəllimin gərgin zəhməti və gündəlik fəaliyyəti durur".

Sabahımızın sahibləri olan nəsli yetişdirən, onların beyinlərini zəka, əxlaq, Vətən sevgisi nuruna qərq edən bütün müəllimlərimizi peşə bayramları münasibətilə təbrik edirik!

**XQ**